# Yadımda qalanlar

**Mən Sumqayıt şəhərinə keçən əsrin 50-ci illərindən gəlib-gedirdim. O vaxt tələbə idim. Dayılarım Sumqayıtda işləyir, baraklarda yaşayırdılar. Böyük dayım İxtiyar Cəfərov ABZ-də çalışırdı. Kiçik dayım Saleh Cəfərov (ruhları şad olsun) isə XİM avtomat adlı müəssisədə dülgər işləyirdi. Hər həftənin şənbə-bazar günləri Sumqayıta gəlirdim. Dayımgil məni əzizləyir, hədsiz hörmət edirdilər. Həyat yoldaşları Nargilə, Mədinə (ruhları şad olsun) paltarımı yuyur, ütüləyirdilər. Taxtabitinin, mığmığanın, ağcaqanadın tüğyan edən vaxtı yuxudan ayılanda elə bil canım məxmirək tökürdü, qaşınma başlayırdı. Dayılarım mənə ürək-dirək verirdilər. Darıxma, bir azdan gedərik dənizdə çimərsən, dənizin suyu dərmandı, qaşınmanın qarşısını o saat alır.**

O zaman baraklardan dənizə gedən ərazi boş səhranı xatırladırdı. Biz balaca körpüdən keçib düşərdik qumlu səhraya. İndiki İcra Hakimiyyətinin, Sumqayıt Dövlət Dram Teatrının və sonrakı məhəllələrin yerində coratlıların üzüm bağları var idi. Bağ sahibləri ildə 2 dəfə bağa gələrdilər -budamada, məhsul yığılanda. Nə dərmanlamaq olardı, nə çardağa qaldırmaq. Biz dərin ləklərin içərisinə düşürdük. Az qala görünməz olurduq. Şirinliyi boğazımızı yandıran, qumun üstündə xumarlanan ağ şanıdan dərib yeyirdik. Zarafatlaşa-zarafatlaşa Xəzərin sahilinə çatırdıq. Sahildə iri balıqların kəsilmiş başlarını görürdük. Xəzri küləyi əl tərpədəndə dənizdə güclü dalğa olurdu. Dalğa balıqları sahilə atırdı. Adamlar tezdən gedib kisəni balıqla doldurub gətirərdilər. Dünya ikrasının 80%-ni Xəzər dənizi verirdi. Xəzər dənizində hansı səbəbdənsə bu gün balıq qıtlaşıb. Dənizdə uzağa getmədən lap qıraqda çimirdik. Bədənimizdə olan qaşınma yox olurdu. Bir az qumun üstündə dincələndən sonra yenə həmin yolla baraklara qayıdırdıq. Artıq Sumqayıt inkişaf yoluna düşmüşdü. Təhsil ocaqları, sosial obyektlər, yaşayış binaları inşa edilirdi. Bölgələrdən Sumqayıt şəhərinə gənclərin axını başlamışdı. Onlar burada işləməyə gəlir, bir azdan ailə qurur, həmişəlik Sumqayıtda məskunlaşırdılar. Baraklarda çox mehriban qonşular var idi. Onlar axşam işdən sonra həyətə yığışıb deyib-gülürdülər. Yadımdadı, Ağdamdan Səlim adlı bir cavan oğlan çox gözəl rəqs edirdi. Zalım oğlunun sümüyü yox idi elə bil. Bir nəfər tar çalırdı, o da gözəl rəqs edib hamını əyləndirə bilirdi. Lakin, xoşagəlməz hallar da var idi. Antisanitariya baş alıb gedirdi. Ancaq yaman günün ömrü az olar deyib ulularımız. O vaxt dəbdə olan İnşaatçılar klubuna gedirdik. Klubun arxasında "Bakı-Abşeron 45 №li məktəb" var idi. Klubun yaxınlığındakı bazara "Şeytan" bazarı deyirdilər. Dayımgil bazarlığı orda edirdilər. İllər arxada qaldıqca Sumqayıt böyüyürdü, adlı-sanlı əmək adamları yetişirdi. Zəminə Həsənova, Murad Zeynalov, Ağaxan Ağayev, Dadaş Dadaşov, Şəmşəd Pənahov, Məşədi Əliyev, Aslan Aslanov, Tofiq Kərimov və s. kimi əməkçilərin adları dillərdə əzbər olmuşdu. Sumqayıt yarış meydanına çevrilmişdi. İnsanların mehribançılığı, əməksevərliyi məni valeh edirdi.



**Fəhlə qardaş, gözün aydın**
**Zəhmətlinlə gülür vətən.**
**Doğma şəhər Sumqayıtı,**
**Öz əlində böyüdürsən.**
**Koroğlu tək yalmanladın,**
**Xərzi kimi azğın yeli.**
**Hünərə bax, cənnət edir,**
**Şoranlığı insan əli.**

Yadımdadır, 2017-ci ilin iyul ayında dostum, əməkdar müəllim Sabir Məmmədovla dənizkənarı parkda gəzirdik. Artıq şər qarışmışdı. Dostum ayaq saxlayıb dedi: - Əvəz müəllim Mən hər səhər , hər axşam dəniz sahilinə gəlir , havamı dəyişir , əsəblərimi sakitləşdirirəm. Sumqayıt bulvarı salınanda , doğrusu , hər şeyə şübhə ilə yanaşırdım. İnamım yox idi ki , qumsal bir səhrada belə gözəl , yaraşıqlı , hər tərəfi yamyaşıl bir park salmaq olar, özü də qısa bir müddətdə.Bu doğrudanda, bir möcüzədir. Təşəbbüskar , yaradıcı , zəhmətsevər insan əməyinin təntənəsidir.

**Bəli, Sumqayıt gözəl şəhərdi.**
**Gözəllikləri yaradan**
**Deyin, unudularmı.**
**Dünyanı gəzib dolan,**
**Belə gözəl şəhər varmı.**

2015-ci ilin sentyabr ayında möhtərəm prezidentimiz cənab İlham Əliyev sumqayıtlıların yolunda əbədi məşəl yandırdı. Işgüzar, xalqa, vətənə namusla xidmət edən, Sumqayıtı əlinin içi kimi tanıyan, şəhərin ağsaqqalının, ağbirçəyinin, ziyalısının yerini bilən bir şəxsiyyəti Zakir Fərəc oğlu Fərəcovu Sumqayıt şəhərinə İcra hakimiyyətinin başçısı təyin etdi. Həmin gündən Sumqayıtda ab-hava dəyişdi. Saflaşma, paklaşma dərhal hiss olundu.

**Hünər meydanıdır addımla qardaş,**
**Zəhmətə həmdəm ol, hünərə sirdaş.**
**Vətən sarayında çatmasa bir daş,**
**Ora ürəyini qoyasan gərək.**

Bu xoş arzu ilə hünər meydanına atıldı Zakir Fərəcov. Artıq hər şey göz qabağındadır. Görünən dağa nə bələdçi. Bu gün möhtərəm prezidentimiz cənab İlham Əliyevin bütün Azərbaycanın abadlaşmasına, o cümlədən Sumqayıt şəhərinin abadlıq-quruculuq işlərinə göstərdiyi qayğı, Sumqayıt şəhərinin 70 illik yubileyinin yüksək səviyyədə qeyd olunmasına imzaladığı sərəncam, dövlət başçısının Sumqayıta, sumqayıtlılara olan qayğısının parlaq təzahürüdür. Az zaman kəsiyində mindən çox damın yüksək səviyyədə çardaxlanması, liftlərin təzələnməsi, küçələrin, yolların asfaltlanması, prospekt və küçələrdə, uşaq baxçalarında, məktəblərdə, Sumqayıt Dövlət Universitetində gedən abadlıq-quruculuq işləri, Heydər parkı, Poeziya evinin Sumqayıt yazarlarına hədiyyə edilməsi, Heydər Əliyev Mərkəzi, Ulu Öndərin müəqəddəs heykəlinin Heydər Əliyev mərkəzinin qarşısında ucaldılması, ziyarətgaha çevrilməsi, Şahmat məktəbi, Uşaq və Gənclər Musiqi məktəbi, YAP-ın inzibati binası, Dram teatrının, Kimyaçılar sarayının, Lüdviqshafen parkı, xəstəxanaların, məktəblərin əsaslı təmiri, Sumqayıt bulvarı və.s kimi çox saylı işlər möhtərəm Prezidentimizin Sumqayıta və Sumqayıt sakinlərinə göstərdiyi diqət və qayğının Zakir Fərəcovun yaradıcılıq , quruculuq və təşəbbüskarlıq bacarığının parlaq təcəssümüdür.

2019-cu il fevral ayının 18-də mən nəvələrimlə, dostlarımla bulvarda gəzirdim. Bir də gördük möhtərəm Prezidentimiz bulvara gəldi. Getdik görüşdük. Mən cənab Prezidentlə 7 dəqiqə söhbət elədim. Onun sadəliyi, mehribanlığı, insanpərvərliyi, qayğıkeşliyi, boydan gödək olan gənclərlə əyilib şəkil çəkdirməsi məni, bütün bulvardakıları heyran etdi. Sumqayıt Bulvarını möcüzə adlandıran cənab Prezidentimizi Allah qorusun .

**Göyün ulduzları səpilir yerə**
**Gecə tüğyan edir burda nur seli**
**Gör necə yaraşır mavi Xəzərə**
**Sumqayıt bulvarı dünya gözəli**

"Sumqayıt bulvarı" həm də müalicəxanadır. Dənizin təmiz havası, suyu, qumu, insanları müalicə edir. Bayraq muzeyi, Muğam evi, yaraşıqlı bulvar, evlərin abadlaşması, divarların rənglənməsi, qapı və pəncərələrin yenisi ilə əvəz edilməsi şəhəri dünyada tanıtdı. Əmək adamlarının, Sumqayıtı qurub yaradanların adlarına küçə, yaşadıqları evlərin divarlarına xatirə lövhələrinin yapışdırılması, Sumqayıt sakinlərinin fəxri adlarla təltif olunması, Nizami adına kinoteatrın yenidən möhtəşəm, iki mərtəbəli bina ilə inşa edilməsi, bunlar hamısı bizi sevindirir. Sahil küçəsi, Corat qəsəbəsinin Sahil küçəsinə baxan hissəsində uşaq oyun meydançaları, sakinlərin istirahəti üçün yaradılan şərait ürək açandır.

**İcazə ver Sumqayıtım,**
**Təbrik edim mən yaşını.**
**Qucaqlayım, öpüm sənin,**
**Hər güşəni, hər daşını.**

**Gözəl şəhər az yaşında**
**Tarixlərə düşdü adın**
**Xəzər sənə layla çaldı,**
**Pərvazlandın, qanadlandın.**

**Alqış sənin qələbənə,**
**Gündən-günə ucalırsan.**
**Nəsillərə şöhrət olub,**
**Nəsillərdən güc alırsan.**

**Əvəz Mahmud Lələdağ**
**Şair, dramaturq, publisist**